| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | TURK101 Türkologiyaya giriş, 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Almaz Bədəlova |
| | **E-mail:** | doctorant@live.com |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə uyğunlaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Dərsliklər:**<br>1. A. Caferoğlu, Türk dili tarihi I-II, İstanbul 1984<br>2. F. Zeynalov. Türk dillərinin müqayisəli qrammatikası. Bakı, 2008<br>3. F. Zeynalov. Türkologiyanın əsasları. Bakı, 1981<br>4. B. Xəlilov. Türkologiyaya giriş, Bakı, 2013<br>5. A.Von Gabain, Eski Türkçenin Grameri, (Çev. Mehmet Akalın), Ankara 1988<br>6. T.Tekin, Orhun Yazıtları, İstanbul 2003<br>7. Kazımov Q. Azərbaycan dilinin tarixi B 2001.<br>8. Quliyev M. Qədim türklər B. 1993.<br>9. Qumulyov. L. Qədim türklər.B.1993.<br>10. Muxtarova Ə. Türk xalqlarının tarixi B.1999<br>11. Rəcəbov Ə., Məmmədov Y. Orxon –Yenisey abidələri B.1993.<br>12. Rəcəbli Ə . Qədim türk yazılı abidələri. B.2009.<br>13. Şükürlü Ə.Qədim türk yazılı abidələrinin dili. B.1993<br>14. Yusifov M. Türkologiyaya giriş B 2000<br>15. Zeynalov F. Qədim türk yazılı abidələri. B. 2009. | |
| **Kursun təsviri** | Türkologiyaya aid indiyədək çoxlu sayda tədqiqat işləri aparılmış, dərslik və dərs vəsaitləri çap edilmişdir. Bu fənnin tədrisində mövcud elmi-tədqiqat işlərinin nəticələri, eləcə də dərslik və dərs vəsaitlərinin təcrübələri nəzərə alınmışdır. Fənnin tədris olunmasının əsas məqsədi türk dillərinin təsviri və müqayisəli şəkildə öyrənilməsidir. Kursda türk dilinin tarixi inkişaf mərhələləri təsvir ediləcək, dövrlər üzrə türk dillərinin differnsiasiya və inteqrasiya prosesləri izləniləcəkdir. Türk dillərinin dünya dilləri içərisində yerini müəyyənləşdirmək, bu ailəyə hansı qədim və çağdaş dillərin aid olması incələnəcəkdir. Ana türkcə və proto-türk tayfları haqda tarxi və linqvistik ədəbiyyat dərindən təhili olunacaq. Türk dillərinin təsnifatı məslələri təhlil olunacaq. Çağdaş türk dillərinin milli dil səviyyəsinə qalxma və dialektlər səviyyəsində qalma səbəbləri araşdırılacaq. | |
| **Kursun məqsədləri** | Kursun öyrənilməsində məqsəd türk dilini diaxron və sinxron şəkildə tədris etməkdir. Türk dilinin tarixi, qədim yazılı nümunələri, onların dil xüsusiyyətləri haqqında məlumat vermək, nümunələrlə tanış etməkdir. Qədim türk dilinin bölünməsi nəticəsində yaranan müasir türk dillərinin yayıldığı coğrafi areal , türk dillərinin yaranma və inkişaf tarixi, genealoji qrupları və onların dil xüsusiyyətləri ilə tanış etməkdir. Eyni zamanda tələbələrdə türkologiyanın elmi istiqamət kimi | |

| | |
|---|---|
| | mahiyyətini, predmetini və inkişaf mərhələlərini dərk etmək bacarığını formalaşdırmaqdır. Kursun məqsədi yalnız nəzəri məlumat verməklə məhdudlaşmır, həm də tələbələrdə elmi təfəkkürün inkişafını,müqayisəli dilçilik bacarıqlarını,tarixi-linqvistik analiz vərdişlərini, dillərarası əlaqələri anlamaq qabiliyyətini formalaşdırmağı hədəfləyir.Kurs tələbələrə türk xalqlarının tarixi, mədəniyyəti, folkloru və etnoqrafiyası barədə ilkin təsəvvür yaradır, onları gələcəkdə bu sahədə müstəqil araşdırma aparmağa hazırlayır.Fənnin daha bir mühüm məqsədi isə tələbələrdə elmi mənbələrlə işləmək, fərqli nəzəriyyələri müqayisə etmək, obyektiv nəticələr çıxarmaq bacarığını inkişaf etdirməkdir. Bu, onların yalnız filoloji biliklərini deyil, həm də tənqidi düşünmə və analitik yanaşma qabiliyyətlərini gücləndirir.<br><br>Beləliklə, kursun ümumi məqsədi tələbələrin türk dilləri və xalqları haqqında fundamental elmi baza əldə etməsini, onların tarixi və müasir inkişaf qanunauyğunluqlarını mənimsəməsini və gələcək elmi-pedaqoji fəaliyyətlərində istifadə edə biləcəkləri praktiki bacarıqlar qazanmasını təmin etməkdir |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr öyrənəcəklər:<br><br>1. Türkologiyanın predmeti, mahiyyəti və inkişaf mərhələləri haqqında sistemli biliklərə yiyələnəcək;<br>2. Türk xalqlarının etnogenezi, tarixi coğrafiyası və mədəni irsi barədə anlayış qazanacaq;<br>3. Türk dillərinin genealoji qruplarını, onların əsas fonetik, leksik və qrammatik xüsusiyyətlərini izah edə biləcək;<br>4. Qədim türk yazılı abidələrinin (Orxon-Yenisey kitabələri, Uyğur mətnləri və s.) dil, məzmun və tarixi əhəmiyyətini şərh edə biləcək;<br>5. Müasir dövrdə türk dillərinin yayılma areallarını və qarşılıqlı əlaqələrini təhlil edə biləcək<br>6. Müqayisəli dilçilik metodları əsasında türk dillərinin oxşar və fərqli cəhətlərini müəyyən edə biləcək;<br>7. Ana türkcənin tarixi və ilk yaranma məkanı haqqındakı görüşləri müzakirə edə bilmək;<br>8. Ana türkcənin tarixi inkişaf mərhələlərini düzgün dövrləşdirməyi bilmək;<br>9. Türk dillərinin təsnifatını düzgün müəyyən etmək;<br>10. Qədim və orta dövr türk tayfa dillərinin fonetik, leksik və morfoloji xüsusiyyətlərini müəyyən edə bilmək;<br>11. Qədim və orta dövr türk tayfa dillərinin leksikasında fərqləri müəyyən edə bilmək;<br>12. Tarixi-müqayisəli metodla çağdaş və qədim türk tayfa dilləri arasında paralleliklər aparmağı bilmək; |

| | | |
|---|---|---|
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup müzakirəsi | + |
| | Sual-cavab/mətn çalışması | + |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |

| | | | |
|---|---|---|---|
| | Fəallıq | | 5 |
| | Tapşırıq | | 5 |
| | Final imtahanı | | 40 |
| | Quiz | | 15 (5+5+5) |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |

**Qaydalar (Tədris siyasəti və davranış)**

**Fəallıq**: Tələbənin müzakirələrdə iştirakı nəzərə alınır. Həftə ərzində tələbənin dərsdəki fəallığı (verilən materialın təmini, mənimsənilməsi, sual-cavabda iştirakı, mövzuyla əlaqəli sualların verilməsi, analiz etmə bacarığını göstərmə və s.), mövzu haqqında diskussiyadakı hazırlığı əsasında qiymətləndirmə aparılacaqdır. Sual-cavab metoduyla tələbənin mövzunu mənimsədiyi qitmətləndiriləcəkdir. Eyni zamanda informasiya məğzli mövzular əsasında videodерslər hazırlanacaq.

**Tapşırıqlar :** Bu fənn tələbələrin yalnız nəzəri biliklərini deyil, həm də araşdırma**,** tənqidi təfəkkür**,** təqdimat hazırlama bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Tapşırıqlar keçirilən mövzulara aid verilir və bir-birini tamamlayır. Məqsəd mühazirə materialının möhkəmləndirilməsi, müstəqil oxu vərdişlərinin formalaşdırılması və tələbənin mövzu üzərində fərdi işləməsinə şərait yaratmaqdır. Kursun tələbindən irəli gələrək oxu və dinləmə tapşırıqları, müxtəlif türk dillərində bir mətnin qısa müqayisəli təhlili, 3–4 nəfərlik qrup şəklində terminoloji lüğət tərtibi (20–25 əsas termin və izahı) kimi tapşırıqların keçirilməsi nəzərdə tutulur.

**Quizlər:** Türk dili materalları əsasında həm mətn təhlili, həm də analiz mahiyyətli mətnlər hazırlanacaqdır. Bu üç quiz birlikdə nəzəri bilikləri, tarixi faktları və müasir problemlərə yanaşma bacarıqlarını qiymətləndirir. Həm test, həm qısa cavab, həm də müzakirə suallarının qarışığı tələbələrdə həm reproduktiv (biliklərin xatırlanması), həm də analitik düşünmə qabiliyyətini inkişaf etdirir. Türk dillərinin təsnifatı, qohumluq əlaqələri və əsas dil qrupları haqqında biliklərini yoxlamaq və möhkəmləndirmək məqsədilə təşkil olunacaq. Eyni zamanada türkologiya elminin tarixi inkişaf mərhələlərini, görkəmli alimlərin fəaliyyətini və əsas elmi məktəbləri dərk etməsini əhatə edəcək

**Davamiyyət**: Semestr ərzində tələbənin dərsdə iştirakına görə bal verilir. 2 qaib 1 balı kəsir. Semestr ərzində tələbə 5 akademik dərs saatı buraxdığı zaman davamiyyətdən balı almayacaqdır.

**Qeyd: Tələbə dərsdə 25% iştirak etməzsə imtahana buraxılmayacaq.**

**İmtahan haqqında:**

Aralıq və Final imtahanları açıq (eyni zamanda mətn təhlili) və qapalı sual formasında keçiriləcəkdir.

**Cədvəl**

| | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | | Türkologiya elmi, mənbələri<br>Türk dilinin tarixi məsələləri haqqında | Xəlilov, 5-9<br>Zeynalov, 10-14<br>Caferoğlu-I, 10 |
| 2 | | Türk dilinin dünya dilləri içindəki yeri. Dil qohumluğu. Dil nəzəriyyələri. | Xəlilov, 45-51 |
| 3 | | Ural-Altay nəzəriyyəsi | Xəlilov, 45-61 |
| 4 | | Türk dilinin dövrləşdirilməsi məsələsi | Xəlilov, 127-137<br>Zeynalov, 10-29 |
| 5 | | Qədim türk dövrü. Mövcut olduğu tarixi yerlər. Abidələr. | Zeynalov, 15-36<br>Xəlilov, 127-137 |
| 6 | | İlk yazılı abidələr. Xüsusiyyətləri | Zeynalov, 15-36<br>Tekin, 2003, Kül Tigin yazıtı, 35 |
| 7 | | Türk dilinin fonetik ve leksik quruluşu | Xəlilov, 257-279<br>Tekin, 2003, Kül Tigin yazıtı, 35-42 |
| 8 | | Türk dilinin morfoloji quruluşu<br>**Aralıq imtahanı** | Xəlilov, 279-291; Zeynalov, 76-279<br>Tekin, 2003, Kül Tigin yazıtı, 35-42 |
| 9 | | Orta türk dövrü. Tarixi məlumatlar. Qaynaqlar. | Xəlilov, 221-230 |
| 10 | | Türk dillərinin təsnifatı. Türk və xarici Türkoloqların təsnifatlarının xüsusiyyətləri | Xəlilov, 291-321<br>Zeynalov, 76-279 |
| 11 | | Oğuz qrupu türk dilləri. Yayıldıqları ərazilər. Xüsusiyyətləri | Xəlilov, 257-279<br>Zeynalov,68-76 |
| 12 | | Qıpçaq qrupu. türk dilləri. Yayıldıqları ərazilər. Xüsusiyyətləri | Xəlilov, 279-291 |
| 13 | | Karluq-uyğur qrupu. Fonetik və leksik xüsusiyyətləri | Zeynalov, 181-279<br>Zeynalov, 325-335 |
| 14 | | Çuvaş dili.<br>Yakut dili. Dil xüsusiyyətləri | Xəlilov, 344-355 |
| 15 | | I Bakı Türkoloji Qurultayı<br>Yekun. Dəyərləndirmə | Xəlilov, 358-368 |
| | | **Final** | |